# GÜNEY AZƏRBAYCAN MİLLİ-SİYASİ OYANIŞ HƏRƏKATI VƏ ONUN İRAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNƏ OLA BİLƏCƏK TƏSİRİ

A.H.İFTİXARİ
*AMEA-nın Şərqşünaslıq İnstitutu*

1990-cı illərdən bəri Güney Azərbaycanda yenidən başlanmış milli hərəkatı ancaq ötən yüz ildə İranda baş vermiş azadlıq hərəkatı çərçivəsində araşdırmaq mümkündür. Qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərində Azərbaycanın parçalanması bu qədim xalqın taleyini dəyişərək milli düşüncənin formalaşmasına zəmin yaratmışdır.

Mövzuya giriş üçün «milli dövlət» məsələsini açıqlamaq lazımdır. Müasir tarixdə Avropada yaranıb get-gedə təkmilləşmiş hakimiyyətin yeni formaları, özünəməxsus tarixi-ictimai şəraitdə əmələ gəlmişdir. Ümumiyyətlə, İranda və Şərq ölkələrində qurulmuş dövlətin yeni forması qondarma olaraq birbaşa istibdad, mərkəzçilik və diktatura ilə nəticələnmişdi. Qərb ölkələrində XVIII əsrdən başlanmış fəlsəfi, ictimai və texniki inqilabların gedişi geri qalmış Şərq ölkələri, o cümlədən İranda baş vermiş 1905-ci il Məşrutə inqilabında özünü göstərmişdi. Xatırladaq ki, XX əsrin əvvəllərində İranda ictimai və iqtisadi vəziyyət ağır idi. Bu ölkənin müxtəlif xalqları neçə min il əsarət altında yaşayırdılar. Bunu da qeyd etmək lazımdır ki, XX əsrn əvvəllərində İranda milli demokratik inqilabın əsasları hələ tam inkişaf etməmişdi. Bütün bu amillər Məşrutə inqilabının məğlubiyyətinə səbəb oldu. Lakin Məşrutə hərəkatının böyük əhəmiyyəti ondan ibarətdir ki, İranda bu günədək baş vermiş bütün ictimai-siyasi hərəkatların əsas istiqamətini təşkil etmişdir.

1914-cü ildən başlanmış Birinci dünya müharibəsi dünya və region səviyyəsində siyasi-hərbi tarazlığı pozmuşdur. Müharibənin qalibləri, o cümlədən İngiltərə müstəmləkəçiliyini yerinə yetirmək və ələ keçirdiyi ərazidə öz nüfuzunu bərpa etmək üçün qeyri-müstəqil, mərkəzləşmiş və diktator rejimlərin qurulmasına şərait yaratmış və bu proseslərdə birbaşa iştirak etmişdir. Bu cür rejim İranda Rza xan və S.Z.Təbatəbainin 1922-cı il Fevral çevrilişi ilə qurulmuşdur. Rza şahın ölkənin mühitinə, ənənələrinə uyğun olmayan köksüz yeniləşdirmə strategiyası bir sıra prinsiplərə, o cümlədən ari irqçilik, mərkəzçi dövlət, vahid ölkə, birgə dil və 2500 illik şahlıq tarixinə söykənərək müvəqqəti olaraq azadlıq hərəkatını dayandırmışdı. Bu yanlış siyasət gələcək hadisələrə zəmin yaratdı. Nəhayət adı çəkilən uğursuzluqlarla yanaşı, ölkənin ağır ictimai-siyasi vəziyyəti və beynəlxalq proseslərin hakimiyyət tərəfindən yaxşı dərk edilməməsi İkinci dünya müharibəsinin başlanğıc çağlarında ölkənin işğalı və şahın qaçması ilə nəticələndi.

Qeyd etmək lazımdır ki, 1940-cı illərdə İranda yeni bir siyasi vəziyyət yaranmışdı. Hakimiyyətə yeni gəlmiş Məhəmməd Rza şah gənc və

təcrübəsiz idi, digər tərəfdən isə ölkə işğal olunmuş və müxtəlif dövlətlərin nüfuz zonasına bölünmüşdür. Belə bir şəraitdə Qacar şahları və Rza şah tərəfindən sıxışdırılmış demokratik qüvvələrin baş qaldırmasına şərait yaranmışdı. Bir neçə partiya, o cümlədən xalq partiyası yarandı. İslamçı yaraqlı qruplar baş qaldırdı. İran xalqının tapdalanmış milli hüquqları uğrunda mübarizəsi genişləndi. Belə ki, Azərbaycanda S.C.Pişəvərinin başçılığı altında Azərbaycan Demokrat Firqəsi, daha sonra isə Soyuq Bulaqda (Mahabad) M.Qazinin təşəbbüsü ilə (1945-1946) Kürdüstan Demokratik Partiyası yarandı. Təəssüflər olsun ki, «Xalqlara muxtarlıq, İrana demokratiya» əsasında ələ gələn nailiyyətlər, daxili istibdad və xarici müstəmləkəçilərin mənafeyi yolunda qurban verildi.

Azərbaycan xalqı İranın başqa xalqları ilə bərabər II, Pəhləvinin diktatorluq dövründə də çeşidli yollar vasitəsi ilə öz mübarizələrini davam etdirmişdi. İqtidar isə 19 avqust 1953-cü il ABŞ və İngiltərənin göstərişi ilə M.Müsəddiqin əleyhinə apardığı çevrilişindən sonra güclü polis, Savak, hərbi qüvvələr, xanlar, nüfuzlu şəxslər, quldurlar, neftin gəlirləri və xarici dövlətlərin vasitəsi ilə istibdad bayrağını yüksəldərək, müvəqqəti olaraq azadlıq hərəkatını dayandırmışdır. Ancaq gerçək durumu başa düşməyən, özünün xam ideyalarına uymuş hakimiyyət bir sıra tarixi olayların təkrar olunmasına, rejimin devrilməsinə səbəb oldu və neçə illər boyu azadlıq yolunda mübarizə aparan xalq yenidən inqilab etdi.

1979-cu il inqilabında Azərbaycan xalqı və öndə gedən Təbriz inqilabçıları öz milli maraqlarını bir sıra geniş şüarlar içərisində, o cümlədən şahlıq rejiminə qarşı durmaq, istibdad və istismarın məhv olunması, demokratik şəraitin yaranması, ayrı seçkiliyə son qoyulması və azadlığa yiyələnmək prinsiplərini bəyan etmişlər. Belə nəzərə gəlməsin ki, meydanda milli istəklər yox idi. Çünki ötən hadisələr göstərir ki, həmişə müstəqil azərbaycanlı kimliyi olmuşdur (1, s. 47). Məsələn, inqilab dövrü Müsəlman Partiyasının «Xalqlara muxtarlıq» tələbatı, Azərbaycan Birləşmiş Xalq Partiyası tərəfindən irəli sürülmüş Vilayətlər parlamentinin qurulma fikri və Azərbaycan Əncüməninin 9-cu bəyannaməsində «Azərbaycan dili və mədəniyyətinin rəsmi olunması,dilin rəsmi orqanlarda işlənilməsi, bu dildə məktəblərin açılması və informasiyanın yayılması istənilibdir» (2, s. 10-11).

İnqilab hadisələri, o cümlədən müvəqqəti hökumətin məsələləri yeni strukturun formalaşdırılması, islamçıların qələbəsi, hakimiyyətə gələn radikal islamçılardan başqa, mövcud olan siyasi qüvvələrin və silahlı inqilabçıların sıradan çıxarılması və 8 illik İran-İraq müharibəsi milli məsələnin meydana çıxmasına maneə hesab olunurdu. Ancaq İran tərəfindən BMT-nin təhlükəsizlik şurasının 598 saylı qətnaməsinin qəbul olunması, SSRİ-nin dağılması və 80-ci illərdə irəli sürülmüş radikal siyasətin nəticəsi ölkənin daxili və xarici vəziyyətini həssas duruma gətirib çıxardı.

Yaranmış şəraitdə milli məsələ bir daha güclü şəkildə meydana çıxdı. 1998-ci ilin fevralında başlanan Dağlıq Qarabağ məsələsinin yenidən qaldırılması, ermənilərin ərazi iddiaları, Azərbaycan adında müstəqil ölkənin yenidən qurulması və dəmir divarın yıxılması Araz çayının hər iki tayında milli oyanışa səbəb oldu. Qeyd edək ki, adı çəkilən prosesin genişlənməsində kütləvi informasiya yayıcıları və həm Güneydə, həm də Quzeydə milli ruhlu siyasi qurumların rolu danılmazdır.

Güney Azərbaycan hərəkatına təkan verən əhəmiyyətli hadisələrdən biri 1995-ci ildə hakim rejimin radio-televiziya təşkilatı tərəfindən İran türklərinin əleyhinə yayımlanmış sorğudur. Bu sorğu o günədək assimilyasiyaya doğru gedən türk kütləsinə böyük təsir göstərmişdir. O çirkin əmələ qarşı Azərbaycan xalqı və ziyalıları bir neçə aksiya, məqalə və etiraz keçirməklə öz etirazlarını hakimiyyətə bildirmişdilər.

Gözə çarpan digər hadisə 5-ci İslami Məclis seçkilərində M.Ə.Çöhrəqanlının milli və azərbaycançılıq xarakteri daşıyan çıxışlarında görünür. O, başqa ziyalıların köməyi ilə Güney məsələsinin yeni mərhələyə keçməsinə səbəb olmuşdur. Yəni o günədək milli məsələ özünü şeirdə, ədəbiyyatda, mədəni sahədə və gizli söhbətlərdə təqdim etdirirdisə də, o ərəfədən bəri qanuna, bəşər haqlarına, Qurana, təbii haqlara və başqa bu kimi mövzulara söykənərək, yeni bir ictimai-siyasi istiqamətə qədəm qoyulduğundan xəbər verirdi.

Millətçilik hərəkatının axını M.Hatəmi dövründə (1998-2005) də çeşidli təzyiqlərə məruz qalaraq öz təbii inkişafına davam etmişdir. M.Hatəminin insansevər, qanuni və mədəni şüarlarında milli məsələnin həlli üçün müsbət nöqtələr var idi. Ancaq təəssüflər olsun ki, o ölkədaxili sivilizasiyaları və gərgin ictimai vəziyyəti görmədən ölkənin təcriddən çıxarılması və xarici münasibətlərin yaxşılaşdırılmasına can atırdı.

Güney hərəkatı ilə bağlı ən önəmli hadisə, 2006-cı ilin may hadisələridir. İİR-nın «İran» adında rəsmi qəzetində türklərə qarşı çap olunmuş təhqiredici karikatura və yazı İran daxilində və xaricində yaşayan bütün türklərin şiddətli reaksiyasına səbəb olmuşdur. Azərbaycanın əksər şəhərləri və Tehranda geniş etirazlar və aksiyalar keçirilmiş və hakimiyyətlə xalq arasında olan qanlı toqquşmalar nəticəsində xeyli insanlar ölmüş, yaralanmış və həbsə alınmışlar (3, s. 5-6). Güney hərəkatına aid bir sıra digər əhəmiyyətli mövzular, o cümlədən hər il keçirilən Babək qalası toplantıları, 1999-cu ilin yanvarında yazıçılar tərəfindən imzalanmış etiraz məktubu və azərbaycanlı deputatların M.Hatəmiyə yazdığı məktub, hərəkatın milli və regional məsələyə çevrilməsindən xəbər verir (4, s. 343-344). Təbiidir ki, regionun qeyri-sabit durumu və İİR-nın apardığı daxili və xarici siyasətlərinin təsiri gələcəkdə də böyük hadisələrin olacağından xəbər verir.

Güney Azərbaycanın regional təsirindən danışarkən bunu demək olar ki, bu sahədə olan iki məsələnin öyrənilməsi zəruridir. Birincisi, hərəkatın ictimai, siyasi və fəlsəfi mahiyyəti, ikincisi isə iki qonşu ölkənin daxili və xarici vəziyyətinə güney hərəkatının təsirini göstərməkdən ibarətdir.

Bir sıra tarixi və canlı faktlara söykənməklə hərəkatın mahiyyətini bilmək mümkündür. Müasir ictimai-siyasi hadisələrdən qaynaqlanan güney hərəkatının yeni dalğasının mahiyyəti baş verən hadisələr, səslənən ideyalar və şüarlar, habelə müxtəlif dairələrin reaksiyalarında özünü əks etdirir. Misal üçün 7000 illik tarixə söykənən, milli qəhrəmanlarına dəyər verən, ana dilini əsas sayan, dolğun keçmişini fəxr ilə yad edən və tarixi ərazilərini ələ keçirməyə maraq göstərən güney millətçilik hərəkatını belə xarakterizə etmək olar:

1. Ümumxalq içərisində formalaşıb və kütləvi hərəkat sayılır; onun inkişafı uğrunda Azərbaycan ziyalısının rolu danılmazdır;

2. Türkçülük əsasında Azərbaycan xalqının varlığını, taleyini və müqəddəratını qorumağa nail olmaq məqsədi ilə mübarizə edir. (Türk millətçiliyi);
3. Bu hərəkat dünyəvi (secularism) mahiyyətə malik olan bir hərəkatdır;
4. Hərəkatın siyasi aspekti cinayətkar şovinizmə, totalitarizmə və mənfi nasionalizmə qarşı durmaqdan ibarətdir;
5. Güney Azərbaycan hərəkatının qanuni və hüquqi söykənəcəyi təbii hüquq, bəşər haqları və beynəlxalq hüquq prinsiplərinə tabe olmaqdan ibarətdir (5).

Xatırladaq ki, yuxarıda qeyd olunan ümumi konsepsiyalar hərəkatın mahiyyətini və perspektivini tamamilə əhatə edə bilməz və onun iki qonşu ölkə münasibətlərinə ola biləcək təsirini araşdırmaq üçün İİR və Azərbaycan Respublikasının ümumi vəziyyətinə nəzər salmaq lazımdır.

Orta Şərqin geostrateji hissəsində yerləşən İran ölkəsi qədim tarixə, böyük əraziyə, müxtəlif etnoslara və mühüm siyasi-coğrafi şəraitə malikdir. 1979-cu il inqilabından sonra iş başına gələn dini hökumət xeyli problemlər və uğurlarla rastlaşıbdır. İİR-nın daxili və xarici siyasətində islam dininin «Vilayət-e fəqih» əsasında formalaşan prinsipləri hakimdir. İslami inqilabı ixrac etmək, dünya müsəlmanlarını dəstəkləmək, islama dəvət etmək və zalımlarla mübarizə aparmaq onun xarici siyasətinin əsas prinsiplərindəndir (6, s. 36-44). Hakimiyyət başına gələndən bu günə qədər İran rejiminin apardığı daxili və xarici siyasət nəticəsində ölkədə çox mürəkkəb bir vəziyyət yaranmışdır. Bu vəziyyəti aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İİR bir ideoloji, mərkəzçi, farsçı, tək partiyalı və radikal xarici siyasət prinsiplərinə malik olaraq, ABŞ və onun müttəfiqləri ilə yaranmış ziddiyyətli vəziyyət kəskinləşmişdir və coğrafi baxımdan onların mühasirəsindədir.
2. İİR özünəməxsus ideyalar və nüvə məsələsi üzrə tutduğu mövqe region və ölkə daxilində hər hansı bir hadisənin, o cümlədən beynəlxalq qınağa, vətəndaş müharibəsinə və hərbi müdaxiləyə şərait yaradıbdır.
3. İranın içərisində milli məsələ xeyli güclənibdir və mədəni formadan başlayaraq siyasi, təhlükəsizlik və hərbi formalara çevrilməkdədir.
4. Hökumətin milli həmrəylik yaratma planlarında uğursuzluğu bir çox sahələrdə ictimai çatların yaranmasına səbəb olubdur. Təbiidir ki, ötən illər ərzində aparılan mədəni, siyasi və iqtisadi ayrı-seçkilikdən əmələ gələn gərgin vəziyyəti yaxşılaşdırmaq məqsədi ilə hökumət tərəfindən həyata keçirilən müvəqqəti planların nəticəsi qənaətbəxş ola bilməz.

8,5 milyon əhali və 86,6 min km$^2$ əraziyə malik olan Azərbaycan Respublikası, qədim Azərbaycan ərazisinin müstəqilliyə nail olmuş bir parçasıdır. İqtisadiyyatının əsasını neft sektoru təşkil edən AR, sosial və iqtisadi baxımdan keçid mərhələsində yaşayır. Ermənistanın təcavüzü nəticəsində xeyli maddi və mənəvi zərbələrə məruz qalır. AR-nın siyasi quruluşu respublikadır və orada dünyəvilik, dini azadlıq və hərtərəfli inkişaf planları həyata keçirilir. Öz varlığına söykənərək Qərbə doğru inteqrasiya etməkdədir, əhalinin 99%-i savadlıdır və bir çox beynəlxalq təşkilatın üzvüdür:

Qeyd olunan mövzularla yanaşı, müasir AR-da bir sıra əhəmiyyətli, siyasəti istiqamətləndirilən məsələlər mövcuddur:

1. Azərbaycan dövləti və xalqını narahat edən birinci məsələ Ermənistan və onun müttəfiqlərinin təcavüzü nəticəsində 20% torpaqların itirilməsi, bir milyon məcburi köçkün və müharibənin maddi-mənəvi itkilərindən ibarətdir.
2. Siyasi qruplar arasında keçirilən yersiz mübarizələr, önəmli məsələlərin həllinə mane olub, xarici ölkələrin dəxalətinə şərait yaradır.
3. Bir müstəqil Azərbaycan dövləti olaraq, İran, Gürcüstan, Dağıstan və dünyanın müxtəlif yerlərində olan azərbaycanlıların taleyi qismən ondan asılıdır.
4. Naxçıvan Muxtar Respublikasının ana vətəndən ayrı düşməsi. Bu Bakı üçün əlavə çətinliklər yaradır.
5. Azərbaycanda müəyyən qədər radikal dinçilik və potensial etnik məsələsi mövcuddur.
6. Korrupsiya və rüşvət məsələsi.
7. Qərb dünyasına inteqrasiyanın Azərbaycan üçün əhəmiyyəti olsa da mədəni, iqtisadi və siyasi cəhətdən Azərbaycan dövlətçiliyinə və xalqına müəyyən təhlükələr də yaradır.

İİR ilə Azərbaycan Respublikası arasındakı münasibətlə iki ölkə başçılarının bəyanatına əsasən iki qardaş, müsəlman və mehriban qonşu səviyyəsindədir. Onlar EKO və İKT kimi beynəlxalq təşkilatlarda əməkdaşlıq edirlər və 2004-cü ilədək 100-dən artıq müqavilə və memoranduma qol çəkiblər (7, s. 51). İki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 20 may 2002-ci il H.Əliyev və M.Hatəmi arasında imzalanmış 30 maddədən ibarət olan müqavilədə qeyd olunub ki, siyasi, iqtisadi, ticarət, mədəni və ictimai sahələrdə münasibətlərin genişlənməsinə maraq göstərilsin, suverenlik, müstəqillik və ərazi bütövlüyünə hörmətlə yanaşılsın və bir-birinin daxili işlərinə qarışılmasın, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı hərəkətdən və təzyiq formalarından çəkinilsin. Öz ərazisində təşkilatlar, qruplar, dəstələr və şəxslərin digər razılığa gələn tərəfə qarşı fəaliyyət göstərməsinə imkan verilməyəcəkdir (8, s. 61).

Yuxarıda qeyd olunan mövzulara baxmayaraq, real vəziyyət xeyli mürəkkəb və dolaşıqdır. Mövcud beynəlxalq, regional və ölkədaxili prosesləri nəzərə aldıqda görünür ki, iki ölkə münasibətlərinə bir sıra önəmli və strateji məsələlər kölgə salır. İslami inqilabın ixrac edilməsi, din radikalizmi, etnik məsələlər, terrorizm, Dağlıq Qarabağ münaqişəsi, Xəzər məsələsi, ermənilərin təcavüzü və ərazi iddiaları, Rusiya–İran–Ermənistan İttifaqı, Azərbaycanın Qərb ölkələrinə inteqrasiyası, enerji məsələsi, xarici ölkələrin regiondakı maraqları, NATO, panturkizm, vahid Azərbaycan və Güney Azərbaycan hərəkatı kimi önəmli məsələlər istər-istəməz İran-Azərbaycan münasibətlərinə yüksək dərəcəli təsir göstərir (9).

Güney Azərbaycan hərəkatının iki qonşu ölkə münasibətlərinə ola biləcək təsiri haqda Harvard Universitetinin professoru, Qafqaz və azərbaycanşünas alim xanım Brenda Şafferin fikri önəmlidir. «İran azərbaycanlıları məsələsinin – İİR-nin Azərbaycan Respublikası münasibətlərinə xeyli təsiri vardır və Tehranın Qafqaz strategiyasına kölgə salıbdır» (10) deyən xanım Şaffer Dağlıq Qarabağ müharibəsində İranın Ermənistanı himayə etməsini bunun nəticəsi hesab edir.

Xatırladaq ki, kütləvi formada irəli gedən güney hərəkatının bir sıra tələbatı dərk olunsa da onun çatışmayan nöqtələri hər hansı bir elmi analizə maneə yaradır. Hərəkatı təmsil edən birgə təşkilatın olmaması, lidersizlik, çeşidli ideologiyalara bağlılıq və mübarizənin müxtəlif səviyyədə aparılması o cümlədəndir. Amma proseslərin gedişi göstərir ki, başqa faktorlar ilə yanaşı, Güney hərəkatı iki ölkə münasibətlərinə təsir göstəribdir.

Bu barədə ən önəmli mövzulardan biri Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədardır. İİR Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanısa da onun erməniyönlü siyasəti, Ermənistanla strateji əlaqəsi və İİR-nın Ermənistana bağışladığı iqtisadi yardımları, Azərbaycan rəsmiləri və xalqı tərəfindən anti-Azərbaycan əməl adlandırılır. Buna dair Güney hərəkatının kəskin mövqeyi vardır. Güney millətçiləri «Ya Qarabağ, ya ölüm» və «rus, fars, erməni, bütün türkün düşməni» kimi şüarları müxtəlif toplantı və aksiyalarda səsləndirməklə Moskva, Tehran, İrəvan nəhs birləşməsinə qarşı öz nifrətlərini bildiriblər. Təbiidir ki, ermənilər vahid Azərbaycan ərazisinə təcavüz ediblər və hadisələrin gedişi Güney Azərbaycanın müharibəyə qatılmasını istisna etmir. Yekun olaraq Güney hərəkatı İİR-nın daxili məsələsi hesab olunur, ancaq onun regional təsiri ondan ibarətdir ki, erməni təcavüzünə qarşı mövqeyi, Azərbaycan Respublikasının mövqeyi ilə tam üst-üstə düşür, bu mövzu mütləq İİR-nın Qafqaz planlarına təsir göstərir.

Başqa bir məsələ vahid Azərbaycan və azərbaycançılıqdan ibarətdir. Örnək olaraq 1992-1993-cü illər AXCP hakimiyyəti dövründə İİR tərəfindən irəli sürülən islami inqilabı ixracetmə siyasəti və Azərbaycan hökuməti tərəfindən vahid Azərbaycan və Güney məsələsinin qaldırılması iki ölkə əlaqələrini soyuq vəziyyətə çatdırmışdır (11, s. 16). O səbəbdəndir ki, Ə.Elçibəy hakimiyyətinin devrilməsində İran dövlətinin əli olduğu istisna olunmur. Sonralar iki ölkə rəsmiləri bir-birinin daxili işlərinə qarışmamaq və ərazi bütövlüyünü tanımaq prinsiplərini vurğulayaraq, dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında müqavilə imzalamışlar.

**QEYDLƏR**


1. Şeffer B. Şeklgiriye hovviyəte cəmi dər Azərbaycane İran. Tərcümə Rəhimi A. Tehran: Ulus, 1385, 59 s.
2. Azərbaycan Əncüməninin 9-cu bəyannaməsi. «Varlıq» jurnalı, 1979, № 1.
3. «Azadlıq» qəzeti, 2006-ci il, 25 may.
4. «Tribun» jurnalı. № 6, 2001 sveç.
5. Bax: İİR-nın müxtəlif universitetlərində azərbaycanlı tələbləri təşəbbüsü ilə nəşr olunan 50-ə yaxın türkcə-farsca jurnalların məqalələrinə.
6. Məhəmmədi M.Üsule siyasəte xareciyə comhuriye islamiye İran. Tehran: Əmir Kəbir, 1366, 159 s.
7. Heydər Əliyevin İİR ilə əlaqədar baxışları. İİR-nın Bakıdakı səfirliyi, Bakı: Çaşıoğlu, 2004.
8. Heydər Əliyevin İİR ilə baxışları.
9. «Motaleate Asiyaye mərkəzi və Qafqaz» jurnalı. Tehran, xarici işlər nazirliyi, 1382, № 42.
10. Shaffer B. The formation of Azerbaijani collective identity in Iran Nationalities papers, Vol 28, № 3, 2000.
11. Heydər Əliyevin İİR ilə əlaqədar baxışları.

## НАЦИОНАЛЬНОЕ ДВИЖЕНИЕ ЮЖНОГО АЗЕРБАЙДЖАНА И ЕГО ВОЗМОЖНОЕ ВЛИЯНИЕ К ОТНОШЕНИЮ МЕЖДУ ИРИ И АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ

**А.Г.ЕФТЕХАРИ**

**РЕЗЮМЕ**

В статье говорится, что новая волна южных азербайджанцев за национальную независимость в ИРИ соответствовала падению советского режима в СССР. Это движение постепенно расширялось и преобретает своеобразный политический, общественный и культурный характер.

Влияние этого движения на ирано-азербайджанских отношений показала себя в основном по отношении Нагорно-Карабхского конфликта и ирано-армянских связей.

## THE SOUTHERN AZERBAYJAN SOCIO-POLITICAL MOVMENT AND IT'S PROBABLY EFFECTS FOR IR.IRAN AND RESPUBLIC OF AZERBAIJAN RELATIONS

**A.Q.EFTEKHARI**

**SUMMARY**

This topic is analyzing and refer to Iran's contemporary liberation movments/ its latest movment refer to south Azerbayjan ware bigining fram 1990's and its popularity, nationality, secular, historical and democratic character in side anather factors have ability to effecting between tow countery relations. We were see this efeect in Karabaq conflict and whole Azerbaijan idea.